# “Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri

“Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 iyul tarixli 1324 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə, AMEA-nın Rəyasət Heyətinin 2019-cu il 25 sentyabr tarixli 13/9 nömrəli qərarını nəzərə alaraq və “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1.“Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 iyul tarixli 1324 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

2. Ali təhsil müəssisələrinin rəhbərləri Tədbirlər Planının yerinə yetirilməsini təmin etsinlər və görülmüş işlər barədə Təhsil Nazirliyinin aparatına hesabat təqdim etsinlər.

3. Elm, ali və orta ixtisas təhsili şöbəsi (Yaqub Piriyev) Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin iş planlarına daxil edilməsini, onların icrasına nəzarəti, təhsil müəssisələrinə təşkilati köməklik göstərilməsini və daxil olmuş hesabatların ümumiləşdirilib rəhbərliyə təqdim olunmasını təmin etsin.

4. İnformasiya şöbəsi (Elnur Məmmədov) əmrin əlavəsi ilə birlikdə çoxaldılıb aidiyyəti struktur bölmələrə, ali təhsili müəssisələrinə çatdırılmasını, Nazirliyin internet səhifəsində yerləşdirilməsini, “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və keçiriləcək tədbirlərin KİV-lərdə işıqlandırılmasını təmin etsin.

5.Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: “Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il tarixli 19 iyul 1324 nömrəli Sərəncamı, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 2019-cu il tarixli 25 sentyabr 13/9 nömrəli Qərarı ilə təsdiq edilmiş Akademik Məmmədağa Şirəliyevin 110 illik yubileyi ilə əlaqədar Tədbirlər Planı.

***Ceyhun BAYRAMOV,***

***Azərbaycan Respublikasının təhsil naziri***

***21 oktyabr 2019-cu il***

***F-639***